

*Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Milli qürurumuzun təntənəsi

***Ötən ilin 8 noyabr günü Azərbaycan tarixinə ən parlaq səhifələrdən biri kimi düşmüşdür. Qarabağın tacı, muğamımızın beşiyi, nəhayət, qeyrət qalamız Şuşa düşmən tapdağından qurtulmuşdur. O xəbəri eşitdiyimiz andaca hamımız sevincdən "qanadlanmışdıq". Axı, 28 il yarım düşmən əlində qalan Şuşa azadlığa qovuşdu. Bir ildir ki, öz sahibləri onu qanları və canları bahasına geri almışlar.***

Artıq Zəfər bayramı kimi rəsmi status qazanmış həmin gündən etibarən qəddimiz dikəldi, başımızı daha da dik tutduq. Gecədən səhərə, səhərdən axşama qədər xalq bayraqlara bürünərək, böyük coşğu ilə küçələrə, meydanlara axışdı. Ölkə başdan-başa dövlət rəmzlərimizlə bəzəndi, hər tərəf sanki gül açdı. Zirvələrdən, qüllələrdən, eyvanlardan, maşınlardan bayraqlar asıldı. Ertəsi gün, 9 Noyabr – Dövlət Bayrağı Günü bayram şövqümüz qat-qat artıq oldu. Noyabrın 10-da isə Rusiya və Azərbaycan prezidentləri, Ermənistanın baş naziri müharibənin başa çatması barədə bəyanat imzaladılar. Bu, əslində, ermənilər üçün kapitulyasiya aktı idi. Daha iki gün sonra qeyd olunan Konstitusiya Gününü biz həyatımızın əsas qanununda təsbit olunan ərazi bütövlüyünün bərpası sevinci ilə keçirdik.

Şərəf tariximizin zirvə günündə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciət edərək, fərəh dolu duyğularını bölüşdü: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

Elə də oldu. Qarabağ savaşı böyük tarixi zəfərlə bitdi. Düşmənin qondarma DQR sayıqlamasına son qoyuldu. Beləcə, üç gün dalbadal, bir şeirdə deyildiyi kimi, "bayramlar yığışıb bayram eylədi". 30 illik münaqişənin yekun müjdəsi qəhrəmanlıq salnaməmizə qızıllı hərflərlə yazıldı.

...Sentyabrın 27-də işğalçı Ermənistan ordusuna qarşı güclü əks-hücum əməliyyatlatına başlayan Azərbaycan Silahlı Qüvvələri 44 günlük zəfər yürüşü ilə haqq savaşımızı özünün məntiqi sonluğuna çatdırıb, ölkəmizin ərazi bütövlüyünü təmin edib. Bu, "ildırımsürətli müharibə"lər sırasına düşməyə layiq olan bir qəhrəmanlıq nümunəsidir. Qəhrəman oğullarımız öz şücaətləri ilə bəşəriyyətin hərb tarixində yeni səhifə açıblar. Dünyanın müxtəlif ölkələrini təmsil edən hərbi mütəxəssislərin fikrincə, XXI əsrdə 5-ci nəsil silahlarla təchiz olunan ordumuz müasir müharibə aparmağın parlaq örnəyini ortaya qoyub.

Qələbəni şərtləndirən başlıca amillərdən biri o idi ki, işğalın davam etdiyi 30 il ərzində Azərbaycan beynəlxalq aləmdə özünü münaqişənin sülh yolu ilə həllinə sadiq qalan bir dövlət kimi tanıtmışdı. Əvvəlcə ulu öndər Heydər Əliyev, sonra isə Prezident İlham Əliyev bundan ötrü misilsiz diplomatik səylər göstəriblər. Amma, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar uzanır, BMT-nin məlum qətnamələri icra olunmur, Ermənistan isə bunu fürsət bilərək həddini daha da aşırdı. Düşmənin təcavüzü ara vermirdi. Nəhayət, səbri tükənən Azərbaycan ötən il sentyabrın 27-də növbəti hərbi təxribata cavab verməyə məcburiyyətində qaldı. Müdafiə Nazirliyinin yaydığı ilk rəsmi xəbərdə deyilirdi: "Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib. Şəxsi heyət və tank bölmələrimiz, raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsini, hərbi obyektləri və döyüş texnikasını aşkarlayaraq məhv edirlər. Əldə olunan məlumata görə, müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib".

Həmin gün Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində vətəndaşlarımıza qələbəyə böyük inam hissi aşıladı, yanan ürəklərimizə su çilədi, hər birimizi qisasın qiyamətə qalmayacağına inandırdı: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən, ağır artileriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb". Dövlətimizin başçısı bir daha tam qətiyyətlə bildirdi ki, Qarabağ Azərbaycandır və nida işarəsi.

Sentyabrın 27-də, eyni zamanda, cənab İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Azərbaycan rəhbəri oradakı çıxışında ermənilərin növbəti təxribatının səbəblərini açıqladı və diqqəti hərbi komandanlığın qarşında duran konkret vəzifələrə yönəltdi.

Nizami ordularımız isə öz sözünü bilavasitə cəbhə xəttində, düşmənlə üzbəüz savaşda daha kəskin dedi. Biz də elliklə qələbəyə kökləndik. Qismən səfərbərlik elan olundu, amma buna baxmayaraq, on minlərlə könüllü döyüş bölgələrinə can atdı. O günlər bütün şəhər və rayonlarımızdakı hərbi çağırış məntəqələrinin qarşısında izdiham hökm sürürdü, necə deyərlər, iynə atsaydın, yerə düşməzdi. Sarsılmaz Prezident – xalq – ordu birliyi sayəsində mübarizə ruhumuz, qələbə əzmimiz daha da gücləndi. Təmas xəttinin müxtəlif istiqamətlərində genişmiqyaslı zəfər yürüşünün davam etdiyi 44 gün ərzində mənfur erməni silahlı dəstələrinə ard-arda sarsıdıcı zərbələr endirildi. İşğal altında olan rayonlarımız, mühüm strateji yüksəkliklər, kənd və qəsəbələr düşməndən azad edildi. Ermənilərin illərcə qurduğu qat-qat beton istehkamlar bu selin qarşısında tab gətirə bilmədi.

Öncə qələbə müjdələri Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndlərindən, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklərdən gəldi. Tərtərin Suqovuşan və Talış kəndləri, Cəbrayılın, Füzulinin neçə-neçə kəndi hərbçilərimizin hünəri ilə geri qaytarıldı. Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur, Xırmancıq, Ağbulaq, Axullu kəndləri alındı. Oktyabrın 18-də artıq Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağı dalğalandı. Gözümüz televiziya ekranlarında idi. Hər gün yeni bir müjdə, yeni bir qələbə xəbəri eşitməyə amadə idik. Cənab İlham Əliyevin xalqa hər müraciəti ilə bir rayonun, bir böyük ərazinin qarı düşməndən təmizləndiyi qalibanə şəkildə bəyan olunurdu. Tezliklə, növbə Qubadlıya, Xocalıya, Laçına çatdı. Vətən üçün can əsirgəməyən, şəhadəti şərəf bilən igidlərimiz addım-addım irəlidədirlər, əzəli-əbədi torpaqlarımızı qarış-qarış azad etdilər.

Beləcə, uydurma "yenilməz ordu" mifi yayan ermənilərin başı "dəmir yumruq" zərbəsi gördü və onlar silah-sursatı, hərbi texnikanı – tankları, topları, raket qurğularını döyüş meydanındaca atıb qaçdılar. Oktyabrın 4-də Cəbrayıl, 17-də Füzuli, 20-də Zəngilan, 25-də Qubadlı, noyabrın 8-də Şuşa çoxdan gözlədiyi azadlığına qovuşdu. Rayon mərkəzləri ilə bərabər, 4 qəsəbə və 286 kənd işğalçıdan təmizləndi. Ali Baş Komandanımız bu şəhərlərin hər birində üçrəngli Azərbaycan bayrağını qaldırdı, xalqa gözaydınlığı verdi. Şuşa zəfərindən sonra müqəddəs ata vəsiyyətinə əməl etdiyini sonsuz iftixarla dilə gətirdi.

Bu, hərbi müstəvidə əldə olunan qələbə idi. Sonra biz siyasi müstəvidə qələbə qazandıq. Ordusunun darmadağın edildiyini, belinin qırıldığını görən düşmən kapitulyasiya aktına qol çəkməyə məcbur oldu. Bunun ardınca noyabrın 15-də Kəlbəcər, 20-də Ağdam, dekabrın 1-də isə Laçın Azərbaycana döyüşsüz təhvil verildi.

Müharibə zamanı bütün dünya ermənilərlə bizim əxlaq fərqimizi aydın gördü. Azərbaycan yürüş boyunca humanizm prinsiplərinə, silahlı münaqişələrlə bağlı yazılmış və yazılmamış bütün qanunlara tam əməl etdi. Nə dinc əhalini atəşə tutdu, nə də götürdüyü əsirlərə fiziki iztirablar verdi. Bir dəfə də erməni sakinlərinin qaldığı yaşayış məntəqələrini hədəf seçmədi. Amma qarşı tərəf dəfələrlə Gəncəni, Tərtəri, Bərdəni, Ağdamı, Ağcabədini və təmas xəttindən uzaq olan digər rayonları raket atəşlərinə tutdu, nə qədər dinc sakinin qətlinə bais oldu. Düşmənin Qarabağ torpaqlarında addımbaşı mina basdırmasını və müvafiq xəritələri hələ də vermədiyini də əlavə etsək, bizim necə faşist xisləti bir düşmənlə mübarizə apardığımız bir daha göz önündə canlanar.

Müharibə boyunca dost ölkələr, xüsusilə də qardaş Türkiyə və Pakistan bizə mənəvi-siyasi dayaq oldular. Doğrudur, ordumuzun arsenalında olan müasir silahlar, xüsusilə də müharibə günlərində istifadə edilən "Bayraqtar TB2" PUA-ları qələbədə mühüm rol oynadı. Bununla bağlı videogörüntülər münaqişədə üstünlüyün vizual rəmzlərindən birinə çevrildi. Ancaq yenə də əsas güc əsgər, gizir və zabitlərimizin üzərinə düşürdü. Cavan canlarına qıyaraq Vətən yolunda ölümün üstünə şığıyan igidlərimiz qələbəni qanları ilə qazandılar. Ali sərkərdəmizin dönməz qətiyyəti, rəşadətli ordumuzun həsəd aparılacaq fədakarlığı, xalqımızın böyük qeyrəti sayəsində buna nail olduq.

Sentyabrın 27-dən başlayaraq bütün ölkədə Azərbaycan, Türkiyə və Pakistan bayraqları da küçələrə, meydanlara çıxarılmışdı. Bu məqamlardan bəhs edərkən ondan düz 10 il əvvəl Bakıdakı Dövlət Bayrağı meydanındakı 162 metrlik bayraq dirəyinin Ginnes Rekordlar təşkilatı tərəfindən dünyanın ən yüksək bayraq dirəyi kimi təsdiqləndiyini xatırlayırıq. Düşünürük ki, bəlkə də həmin uğur bugünkü zəfər üçün bir məşq idi. Ginnesdən 10 il sonra daha uca nöqtələrdə Azərbaycan bayrağı dalğalandı. Şuşada (1420 metr), Kirs dağında (2725 metr), Dəlidağda (3618 metr), Murovdağda (3724 metr) bayrağımız bəxtəvərcəsinə boy göstərir. Taxılacağı daha uca zirvələr də, o cümlədən, Zəngəzur silsiləsindəki Qapıcıq dağı da (3905 metr) bu üçrəngli, Ay-ulduzlu, ipəkli-quması dövlət rəmzimizi gözləyir.

Ötən il dekabrın 10-da Bakıda keçirilmiş ilk Zəfər paradı da yaddaşlarımızda özünün təravətini əbədi olaraq saxlayacaq. Həmin paradda 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk hərbçiləri də iştirak edirdilər. Paradı Azərbaycan Prezidenti cənab İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan qəbul etmişdir. Zəfər bayrağı qürurla parada gətirilmişdi. Həmçinin paradda 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yenicə qəbul edilmiş müasir hərbi maşınlar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Müharibə zamanı qənimət götürülmüş sınıq-salxaq erməni hərbi texnikasının bir qismi də meydanda seyrçilərin qarşısından keçirilmişdir...

Artıq İkinci Qarabağ savaşından bir il ötür. Ayyarımlıq zəfər yürüşü ilə ərazi bütövlüyümüzün təmin olunduğu həmin dövr tarix kitablarında qeyd ediləcək, gələcək nəsillərə nümunə göstəriləcək. Keçmiş məcburi köçkün soydaşlarımız artıq bu ildən öz rayonlarının işğal günlərini qeyd etmir, azad ata-baba yurdlarına dönməyi səbirsizliklə gözləyirlər. İşğaldan azad olunmuş ərazilərdə hərtərəfli bərpa-quruculuq işləri aparılır. Azəbaycan Qarabağın əvvəlki cəlalını özünə qaytarmaqdadır. Şuşada Türkiyə – Azərbaycan müttəfiqlik bəyannaməsi imzalanıb. "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri keçirilib. Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı bərpa edilib. Qarabağ əhlinin yurd həsrətinin başa çatmasına lap az qalıb...



Bizi qarşıda 8 noyabr – Zəfər bayramı gözləyir. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" sərəncama əsasən, bu bayram hər il qeyd ediləcək. Sərəncamda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi qərara alınmışdır.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***